# Azərbaycan Respublikasının Auditorlar Palatasında 2022-ci il ərzində fəaliyyət göstərən “dəyirmi masa”, təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə
# H E S A B A T

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 5.6-cı “Təcrübəli auditorlar tərəfindən ustad dərslərinin təşkil edlməsi”, 8.3-cü “Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, “dəyirmi masa”ların və seminarların təşkilinin müvafiq struktur bölmələr ilə birgə həyata keçirilməsi” bəndlərinin və Auditorlar Palatası sədrinin “Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, «dəyirmi masa»lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə” 2022-ci il 12 yanvar tarixli 1/2 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə Palatanın icraçı direktoru S.Gülməmmədov tərəfindən 2021-ci ilin 01 noyabr tarixində təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının və üzvlərinin 2021-ci ilin IV rübü və 2022-ci il üzrə ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrlə əlaqədar KİV-də fəaliyyətlərinin siyasi reytinqinə dair Tədbirlər Planına və Palatanın sədri V.Novruzov tərəfindən 2021-ci ilin 30 dekabr tarixində təsdiq edilmiş “Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2022-ci ildə keçirilməsi nəzərdə tutulan tədbirlərin (konfranslar, simpoziumlar, «dəyirmi masa»lar, seminarlar, ustad dərsləri və s.) aylar üzrə Qrafik”inə uyğun olaraq aşağıdakı tədbirlər keçirilmişdir:

## I.İctimai siyasi tədbirlər

1. Auditorlar Palatasında 2022-ci ilin 18 yanvar tarixində “20 yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş onlayn tədbir (məsul icraçılar: Q.Bayramov, F.Qarayev, N.Abdullayeva) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2022-ci ilin 18 yanvar tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

2. Auditorlar Palatasında 2022-ci ilin 02 fevral tarixində “Gənclər Günü”nə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: F.Qarayev, Z.Almazov, N.İsmayılova) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2022-ci ilin 02 fevral tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

3. Auditorlar Palatasında 2022-ci ilin 25 fevral tarixində “26 fevral- Xocalı soyqırımı- insanlığa qarşı cinayət” faciəsinin 30-cu ildönümünə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: F.Qarayev, E.Behbudova, Z.Almazov) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2022-ci ilin 25 fevral tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

“26 fevral- Xocalı soyqırımı- insanlığa qarşı cinayət” faciəsinin 30-cu ildönümünə həsr edilmiş tədbir 2022-ci ilin 06 may tarixində AZƏRTAC-da yayımlanmışdır.

4.”8 Mart- Beynəlxalq Qadınlar Günü”nə həsr olunmuş tədbirin keçirilməsi” bəndinin (məsul icraçılar: V.Cavadov, V.Rəhimov, N.Abdullayeva) icrası məqsədilə Palata sədri V.Novruzov 2022-ci ilin 5 mart tarixində Auditorlar Palatasının üzvü olan xanım auditorlara 8

mart- Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik məktubu göndərmiş və Palatanın xanım əməkdaşları mükafatlandırılmışdır.

5. “20-21 Mart Novruz Bayramı”na həsr olunmuş tədbirin keçirilməsi” bəndinin (məsul icraçılar: S.Gülməmmədov, G.Əhmədova, Z.Almazov) icrası məqsədilə Palata əməkdaşları mükafatlandırılmışdır.

6. Auditorlar Palatasında 2022-ci ilin 06 may tarixində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: Q.Bayramov, F.Qarayev, Z.Almazov) keçirilmişdir Tədbirin nəticəsi barədə məlumat 2022-ci ilin 06 may tarixində Palatanın sədr cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş tədbir 2022-ci ilin 06 may tarixində AZƏRTAC-da yayımlanmışdır.

7. Auditorlar Palatasında 2022-ci ilin 06 iyun tarixində Auditorlar Palatasında Palatanın Şura üzvlərinin, Palatanın Şurası yanında komitə sədrlərinin və Palata əməkdaşlarının iştirakı ilə Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci ilin 18 iyun tarixində imzalanmış “İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı”na həsr edilmiş yığıncaq keçirilmişdir Tədbirin nəticəsi barədə məlumat 2022-ci ilin 07 iyun tarixində Palatanın sədr cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

“İqtisadiyyat” qazetinin 2022-ci il 30 iyun-6 iyul tarixli nömrəsində Aparatın rəhbəri Q.Bayramovun “İnsan hüquqularının müdafiəsində müstəqil auditin rolu” başlıqlı məqaləsi dərc etdirilmişdir.

8. “Ölkə Prezidentinin il ərzində iştirak etdiyi beynəlxalq tədbirlərə dair silsilə məqalələrin hazırlanması və KİV-də işıqlandırılması” bəndinin (məsul icraçılar: V.Novruzov, Q.Əhmədov, N.Quliyeva) icrası məqsədilə:

2022-ci ilin 02 fevral tarixində Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "Yeni Azərbaycan Partiyası”nın rəsmi internet səhifəsində “Sözlə əməlin vəhdəti” başlıqlı məqaləsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

2022-ci ilin 01 iyun tarixində Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "AZƏRTAC"-da “Hesabatlığa verilən yüksək dəyər” başlıqlı məqaləsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

2022-ci ilin 11 iyun tarixində Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "Yeni Azərbaycan" qəzetində “Şəxsiyyət zamanı qabaqlayanda” başlıqlı məqaləsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

2022-ci ilin 19 iyul tarixində Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "AZƏRTAC"-da “Uğurlu iqtisadi islahatlar kölgə iqtisadiyyatına qarşı mübarizənin yeni mərhələyə yüksəlməsi baxımından çox mühümdür” başlıqlı müsahibəsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir.

9. “Ölkənin ictimai-siyasi həyatında baş verən hadislərlə əlaqədar silsilə məqalələrin hazırlanması və KİV-də işıqlandırılması” bəndinin (məsul icraçılar: S.Gülməmmədov, Y.Namazəliyev, N.Quliyeva) icrası məqsədilə:

2022-ci ilin 11 may tarixində Auditorlar Palatasının İcraçı direktoru Səbuhi Gülməmmədovun və Aparatın rəhbəri Qəşəm Bayramovun "İqtisadiyyat" qəzetində “Azərbaycan auditi - 2021: uğurlar və perspektivlər” başlıqlı məqaləsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

2022-ci ilin 06 iyun tarixində Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "AZƏRTAC"-da “İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası ilə əlaqələr bizim üçün əhəmiyyətlidir” başlıqlı müsahibəsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir;

2022-ci ilin 05 oktyabr tarixində Auditorlar Palatasının İcraçı direktoru Səbuhi Gülməmmədovun "İqtisadiyyat" qəzetində “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” başlıqlı məqaləsi dərc edilmiş və həmin müsahibə Palatanın internet səhifəsində yerləşdirilmişdir.

10. Auditorlar Palatasında 2022-ci ilin 14 iyun tarixində Auditorlar Palatasının üzvlərinin və əməkdaşlarının iştirakı ilə “15 İyun - Milli Qurtuluş Günü”nə həsr edilmiş tədbir (məsul icraçılar: Q.Bayramov, E.İbrahimov, Z.Almazov) keçirilmişdir Tədbirin nəticəsi barədə məlumat 2022-ci ilin 14 iyun tarixində Palatanın sədr cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

“15 İyun - Milli Qurtuluş Günü”nə həsr edilmiş tədbir 2022-ci ilin 14 iyun tarixində AZƏRTAC-da yayımlanmışdır.

“15 İyun - Milli Qurtuluş Günü” ilə əlaqədar olaraq 2022-ci il 15 iyun tarxində Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "AZƏRTAC"-da “Milli Qurtuluş – Heydər Əliyev dühasının məhsulu” başlıqlı müsahibəsi, 2022-ci il 17 iyun tarxində Azərbaycan Respublikası Auditorlar Palatasının İcraçı direktoru Səbuhi Gülməmmədovun "İqtisadiyyat" qəzetində “15 İyun – Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür” başlıqlı məqaləsi dərc edilmiş və həmin müsahibə və məqalə Palatanın internet səhifəsində yerləşdirilmişdir.

11. “26 avqust Azərbaycan Respublikasının Birinci vitse prezidenti xanım Mehriban Əliyevann doğum gününə həsr olunmuş məqalənin hazırlanması və KİV-də işıqlandırılması” bəndinin (məsul icraçılar: V.Novruzov, E.Behbudova, N.Quliyeva) icrası məqsədilə 2022-ci ilin 26 avqust tarixində Auditorlar Palatasının sədri V.Novruzovun “Mehriban Əliyeva müasir dünyada nümunəvi fəal qadın və ictimai-siyasi xadim kimi qəbul edilir” başlıqlı müsahibəsi Palatanın internet səhifəsində yerləşdirilmişdir.

12. Auditorlar Palatasında 2022-ci ilin 28 oktyabr tarixində Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2022-ci ilin 28 oktyabr tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr olunmuş tədbir 2022-ci ilin 28 oktyabr tarixində AZƏRTAC-da yayımlanmışdır.

İctimai-siyasi tədbirlərin qrafikinə uyğun olaraq 2022-ci lin 9 dekabr tarixində “Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbirin keçirilməsi” (məsul icraçılar: S.Gülməmmədov, F.Qarayev, N.Quliyeva) və 2022-ci lin 29 dekabr tarixində “31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü” və Yeni il bayramına həsr olunmuş tədbirin

keçirilməsi” (məsul icraçılar: S.Gülməmmədov, F.Qarayev, V.Rəhimov, V.Cavadov, M.Hüseynova, N.Abdullayeva, Z.Almazov) nəzərdə tutulmuşdur.

## II.Konfranslar

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 16 sentyabr 2022-ci il tarixində “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Konfrans öz işinə başlamazdan öncə Tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin “Fəxri Xiyaban”da məzarını ziyarət etmişlər.

Tədbiri Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Azərbaycan Respublikasının Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Samir Məmmədov, Türkiyə Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) İstanbul Seritifikatlı İctimai Mühasiblər Palatasının (İSMMMO) sədri Erol Demirel və Rusiya Federasiyasının “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə Heyətinin sədri İqor Kozirev açaraq, qonaqları salamlayıb konfransın işinə uğurlar arzuladılar və konfrans öz işinə başladı.

Konfrans çərçivəsində rəqəmsal iqtisadiyyat şəraitində şəffaflığın və hesabatlılığın səmərəliliyinin artırılmasında birgə informasiya fazalarının yaradılması, rəqəmsal iqtisadiyyatda süni intellektin tətbiqi, rəqəmsal transformasiyanın iqtisadiyyata təsiri, iqtisadi artımda rəqəmsal həllər, vergi inzibatçılığında şəffaflığın və effektivliyin təmin olunmasında rəqəmsal texnologiyaların artan rolu, idarəetmə uçotunun nəzəri-metodoloji əsasları, rəqəmsal iqtisadiyyat şəraitində hesabatlılıq və audit, Maliyyə Hesabatının Beynəlxalq Standartlarının və onun auditinin ictimai əhəmiyyəti, auditor fəaliyyətinin inkişafı və özünütənzimləmə problemlərinə dair, rəqəmsal iqtisadiyyatda təşkilatların mühasibat uçotunun modernləşdirilməsi, rəqəmsal ekosistemlər, “yaşıl biznes”, müasir şəraitdə audit fəaliyyətinə kənar nəzarət, rəqəmsal iqtisadiyyatda konsolidasiya edilmiş hesabatların əsas göstəricilərinin tərtibi və təhlili metodologiyası, rəqəmsal mühasiblər rəqəmsal iqtisadiyyatın mərkəzində, maarifləndirmə və əməkdaşlıq məsələləri üzrə təcrübə mübadiləsi və hərtərəfli müzakirələr aparılmışdır.

Konfransda Azərbaycan Respublikasının Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Samir Məmmədov, Türkiyə Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) İstanbul Seritifikatlı İctimai Mühasiblər Palatasının (İSMMMO) sədri Erol Demirel, Rusiya Federasiyasının “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə Heyətinin sədri İqor Kozirev, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) prezidenti Alan Conson, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) “Dünya iqtisadiyyatında informasiya texnologiyaları kafedrasının müdiri”, İdarəetmə Sistemləri İnstitutunun Baş direktoru, akademik Əli Abbasov, Kiçik və orta müəssisələr üçün Avropa Mühasiblər və

Auditorlar Federasiyasının (EFAA for SMEs) prezidenti Salvador Marin, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, Türkiyə Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) və Altınbaş Universitetinin Biznesin İdarəedilməsi Fakültəsinin Baş Nümayəndəsi, professor Cemal İbiş, “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru İlqar Vəliyev, İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assossiasiyasının (ACCA) Türkiyə, Azərbaycan, Gürcüstan və Əfqanıstan ölkələri üzrə rəhbəri Filiz Demiröz, “Deloitte & Touche” məhdud məsuliyyətli auditor cəmiyyətinin direktoru Nuran Kərimov, Belarus Respublikası Auditorlar Palatasının sədri Dmitriy Sıç, İnformasiya texnologiyaları institutunun şöbə müdiri Əlövsət Qaraca, Hindistan İmtiyazlı Mühasiblər İnstitutunun (ICAI) Şurasının üzvü Purushottamlal Hukamichand Khandelwal, Gürcüstan Mühasiblər İttifaqının Baş direktoru Tatiana Beridze, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının İdarə Heyətinin sədri Nuriyyə Novruzova, Moldova Peşəkar Mühasiblər və Auditorlar Assosiasiyasının sədri Jorjeta Kovaliov-Rusu, Rusiya Federasiyasının “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının Baş direktoru Olqa Nosova, Rusiya Federasiyasının “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə Heyəti sədrinin müavini Nadejda Kobozeva, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin Hüquq idarəsinin rəisi vəzifəsini icra edən Lasha Koberidze, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, “SR Audit Solutions” məhdud məsuliyyətli cəmiyyətinin direktoru Səftər Vəlizadə, Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədov məruzələrlə çıxış etmişlər.

Konfrans yüksək işgüzarlıq şəraitində keçmiş, maraqlı müzakirə və diskusiyyalarla müşaiyət olunmuşdur.

Sonda beynəlxalq konfrans iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilmişdir. Tədbirdə xarici qonaqlarla bərabər, ölkəmizin dövlət və qeyri-hökumət təşkilatlarını, özəl sektoru, kütləvi-informasiya vasitələrini, ali təhsil və elmi-tədqiqat institutlarını təmsil edən nümayəndələr, Auditorlar Palatasının kollektivi və üzvləri iştirak etmişlər.

Auditorlar Palatası sədrinin “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda keçirilmiş beynəlxalq elmi-praktiki konfransın yekunları barədə” 2022-ci il 20 sentyabr tarixli 1/29 nömrəli sərəncam olmuşdur. Həmin sərəncama əsasən:

- 2022-ci il 16 sentyabr tarixində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfransın yüksək səviyyədə keçirilməsi qeyd edilmişdir.
- “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə müraciətinin və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına hesabatın hazırlanıb göndərilməsi təmin edilmişdir.

- “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfransın təşkilində göstərdiyi dəstəyə görə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri cənab Rəşad Nəbi oğlu Nəbiyevə təşəkkür məktubunun göndərilməsi təmin edilmişdir.

- Konfransın işində iştirak edən məruzəçilərin təmsil etdikləri qurumun rəhbərliyinə minnətdarlıq məktubunun göndərilməsi təmin edilmişdir.

- Konfransın keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə minnətdarlıq məktubunun göndərilməsi təmin edilmişdir.

- Konfransın materialları nəşr etdirilmişdir.

- “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfransın təşkilində fəal iştirak edən əməkdaşlar mükafatlandırılmışlar.

## III.Dəyirmi masalar

1. Auditorlar Palatası tərəfindən 2022-ci ildə keçirilməsi nəzərdə tutulan tədbirlərin (konfranslar, simpoziumlar, «dəyirmi masa»lar, seminarlar, ustad dərsləri və s.) aylar üzrə Qrafik”inə uyğun olaraq 2022-ci ilin 27 iyul tarixində “Auditorlara məhkəmə eksperti statusunun verilməsinin qanunvericilikdə təsbit edilməsinə dair” (məruzəçi – Elnur İbrahimov) “Dəyirmi masa” keçirilmişdir. Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 21 iyul tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2022-ci il 26 iyul tarixli 01 nömrəli protokolla rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 27 iyul tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

2. Auditorlar Palatasında 2022-ci ilin 09 avqust tarixində “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə dair” (moderator – Palatanın icraçı direktoru, işçi qrupunun rəhbəri Səbuhi Gülməmmədov; məruzəçilər - Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Maliyyə və texniki təminat idarəsinin rəisi Vəli Rəhimov) “Dəyirmi masa” keçirilmişdir. Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 01 avqust tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2022-ci il 09 avqust tarixli 02 nömrəli protokolla rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 10 avqust tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

3. Auditorlar Palatasında 2022-ci ilin 01 sentyabr tarixində “Təsərrüfat subyektlərində daxili audit sisteminin yaradılması məqsədilə maarifləndirmə işlərinin həyata keçirilməsi üçün tövsiyələr barədə” (moderator – Aparatın və “Dəyirmi masa”nın rəhbəri Qəşəm Bayramov; məruzəçi - Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) “Dəyirmi masa” keçirilmişdir. Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 23 avqust tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet

səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2022-ci il 01 sentyabr tarixli 03 nömrəli protokolla rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 01 sentyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

4. Auditorlar Palatasında 2022-ci ilin 20 sentyabr tarixində saat “Auditor təşkilatlarında və sərbəst auditorlarda kargüzarlığın aparılmasına dair Təlimat”ın layihəsinin müzakirəsinə həsr edilmiş (moderator – Aparatın və “Dəyirmi masa”nın rəhbəri Qəşəm Bayramov; məruzəçi - Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) “Dəyirmi masa” keçirilmişdir. Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 14 sentyabr tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2022-ci il 20 sentyabr tarixli 04 nömrəli protokolla rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 20 sentyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

## IV.Seminarlar

1. Auditorlar Palatasının sədri cənab Vahid Novruzovun 2021-ci ilin 30 dekabr tarixində təsdiq etdiyi «Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2022-ci ildə keçirilməsi nəzərdə tutulan tədbirlərin (konfranslar, simpoziumlar, «dəyirmi masa»lar, seminarlar, ustad dərsləri və s.) aylar üzrə Qrafik”inə uyğun olaraq 2022-ci ilin 14 yanvar tarixində onlayn qaydada Auditorlar Palatasının üzvləri üçün «Korrupsiya, PL/TM-ə qarşı mübarizə və kölgə iqtisadiyyatının azaldılması ilə bağlı Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) müddəalarında nəzərdə tutulmuş auditorların öhdəliklərinin şərhi» mövzusunda seminar (moderator: Aparatın rəhbəri Qəşəm Bayramov, məruzəçilər: sədrin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, sərbəst auditor Üzeyir Fətiyev) keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 10 yanvar tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatanın üzvləri olan 50 nəfər auditor təşkilatlarının nümayəndələri və sərbəst auditorlar iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 14 yanvar tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

2. Auditorlar Palatasında 2022-ci ilin 18 yanvar tarixində «Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilən dəyişikliklər barəsində» seminar (moderator: sədrin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, məruzəçilər: Maliyyə və texniki

təminat idarəsinin rəisi Vəli Rəhimov, “SR Audit Solutions” MMC-nin direktor-auditoru Səftər Vəlizadə) keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 14 yanvar tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatanın üzvləri olan 58 nəfər auditor təşkilatlarının nümayəndələri və sərbəst auditorlar iştirak etmişdir

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 18 yanvar tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

3. Auditorlar Palatasında 2022-ci ilin 23 fevral tarixində tarixində “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti və ya necə korrupsiya qurbanına çevrilməmək istiqamətləri?” mövzusunda seminar (moderator – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, məruzəçi – Maliyyə və texniki təminat idarəsinin rəisi Vəli Rəhimov) keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 18 fevral tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 94 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 23 fevral tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

4. Auditorlar Palatasında 2022-ci ilin 25 fevral tarixində tarixində “Keyfiyyətə nəzarət üzrə müfəttişlərə keyfiyyətə nəzarət qaydası təcrübəsi barədə” seminar (moderator – Sədrin müşaviri Yaşar Namazəliyev, məruzəçi – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi, sərbəst auditor Elnur İbrahimov) keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 22 fevral tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 80 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 25 fevral tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

5. Auditorlar Palatasında 2022-ci ilin 16 mart tarixində tarixində "Çirkli pullara və korrupsiyaya qarşı milli mübarizə sistemində auditorların rollarının gücləndirilməsi barədə" (moderator – Auditorlar Palatası Aparatının rəhbəri Qəşəm Bayramov, məruzəçi – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi, sərbəst auditor Elnur İbrahimov) və "Korrupsiyaya və PL/TM qarşı mübarizə barədə Azərbaycan Respublikasının qanunvericiliyinin şərhi" (moderator – Auditorlar Palatası Aparatının rəhbəri Qəşəm Bayramov, məruzəçi – Auditorlar Palatasının Şurası yanında Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri, "VXA-Audit" MMC-nin direktoru-auditor Elçin Qurbanov) mövzularında seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2022-ci ilin 10 mart tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarlada mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 27 auditor təşkilatlaının 32 nəfər nümayəndəsi, 16 nəfər sərbəst auditor, 24 nəfər digər maraqlı tərəflərin nümayəndələri və 6 nəfər Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 16 mart tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

6. Auditorlar Palatasında 2022-ci ilin 29 mart tarixində tarixində "Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin operativ təhlili barədə" seminar (moderator: Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, məruzəçi: Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi Vasif Cavadov) keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 18 mart tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 40 nəfər auditor təşkilatlarının nümayəndələri, 18 nəfər sərbəst auditor və 6 nəfər Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarın nəticəsinə dair hazırlanmış məlumat 29 mart tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçinin çıxışı isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

7. Auditorlar Palatası sədrinin 2022-ci il 15 mart tarixli 1/14 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə 2022-ci ilin 12 may tarixində tarixində "Auditor təşkilatlarında daxili nəzarət sistemi" və "Müasir şəraitdə hesabatlılıq və audit: etimadın necə

gücləndirilməsi" (moderator – Aparatın rəhbəri Qəşəm Bayramov, məruzəçi – Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov) mövzularında seminar keçirilmişdir.

Həmin seminarların keçirilməsi ilə əlaqədar 2022-ci ilin 10 may tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzular ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarlarda Auditorlar Palatasının üzvləri olan 84 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

Seminarların nəticəsinə dair hazırlanmış məlumat 12 may tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində, məruzəçilərin çıxışları isə Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.

8. Auditorlar Palatasında 2022-ci ilin 23 may tarixində tarixində "Auditor xidmətinin sifarişçiləri və onların tənzimləyici qurumları ilə auditor seçiminə dair müsabiqə prosedurlarının təkmilləşdirilməsi" (moderator – Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi, sərbəst auditor Elnur İbrahimov, məruzəçilər – Maliyyə və texniki təminat idarəsinin rəisi Vəli Rəhimov, Kadr hazırlığı idarəsinin rəisi Elmira Behbudova) keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2022-ci ilin 16 may tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatasının üzvləri olan 109 nəfər auditor təşkilatlarının nümayəndələri, sərbəst auditorlar və Palatanın əməkdaşları iştirak etmişdir.

